**12.04.2022: xəbər**

## An Event at Nailakhanim Isayeva Museum

On April 8, 2022, an event was held at the Nailakhanim IsayevaMuseum, established at Khazar University's Dunya School.

The event was attended by the administration and staff of Khazar University and Dunya School, as well as well-known intellectuals of the country - public figures, scientists, writers, poets, and singers.

At the event, opened with the performance of NailakhanimIsayeva's musical works by the University Chamber Orchestra, Vice-Rector for Management and Student Affairs IsakhanIsakhanli greeted the guests and gave them detailed information about the museum created to perpetuate the memory of Nailakhanim Isayeva and future works to be done. He noted that the museum at Khazar University's Dunya School not only reflects chronologically the life and public activities of Nailakhanim Isayeva, known for her rich experience in education, her hard work, and her musical compositions, but also is a commendable idea to immortalize and promote the memory of women who have left their mark on the history of Azerbaijan, whether in the field of science, education, culture, art, as well as in heroic epics and works of art.

The designer of the museum, the director of Khazar University Museum of Decorative and Applied Arts, carpet artist AfagKarimova informed the guests about the structure and design of the museum, acquainted them with the stands reflecting the life, activity, personal clothes and belongings of NailakhanimIsayeva, music, songs in the form of notes and illustrations, which are the 8 pearls of her creativity.

Guests visiting the museum- people's poet Ramiz Rovshan, people's artists Khuraman Gasimova, Yegana Akhundova, FidanHajiyeva and historian-scientist Solmaz Tohidi shared their memories about Nailakhanım.

At the end of the event, the book "Nailakhanım Isayeva in memories" was presented to the guests.

**Nailə xanım İsayeva muzeyində tədbir**

2022-ci il aprelin 8-də Xəzər Universiteti “Dünya” məktəbində təsis edilən Nailə xanım İsayeva muzeyində tədbir keçirildi.

Tədbirdə Xəzər Universiteti və “Dünya” məktəbinin rəhbərliyi, əməkdaşları, ölkənin tanınmış ziyalıları – ictimai xadimlər, alimlər, yazıçılar, şairlər, müğənnilər iştirak edirdilər.

Universitetin Kamera orkestrinin Nailə xanım İsayevanın musiqi əsərlərinin ifası ilə açılan tədbirdə İdarəetmə və tələbə işləri üzrə prorektor İsaxan İsaxanlı qonaqları salamlayaraq, Nailə xanım İsayevanın xatirəsini əbədiləşdirmək üçün yaradılan muzey və gələcəkdə görüləcək işlər haqqında onlara ətraflı məlumat verdi. O qeyd etdi ki, Xəzər Universiteti “Dünya” məktəbi nəzdində olan muzey təhsil sahəsində zəngin təcrübəsi, böyük əməyi, həmçinin musiqi bəstələri ilə tanınan Nailə xanım İsayevanın həyatını və ictimai fəaliyyətini xronoloji baxımdan əks etdirməklə yanaşı, Azərbaycanın tarixində iz qoyan, istər elm, təhsil, mədəniyyət, incəsənət sahəsində, istərsə də adı qəhrəmanlıq dastanlarında, bədii əsərlərdə məşhurlaşan qadınların xatirəsini əbədiləşdirmək, onları təbliğ etmək kimi təqdirəlayiq bir ideyanın daşıyıcısıdır.

Muzeyin tərtibçi-dizayneri, Xəzər Universitetinin Dekorativ-Tətbiqi Sənət Muzeyinin direktoru, xalçaçı rəssam Afaq Kərimova muzeyin quruluşu və tərtibi haqqında qonaqlara məlumat verdi, onları Nailə xanım İsayevanın həyatını, fəaliyyətini, şəxsi geyim və əşyalarını əks etdirən stendlərlə,yaradıcılığının 8 incisi olan musiqiləri, mahnıları not və illüstrasiya formasında göstərən böyük həcmli musiqi vitrini ilə tanış etdi.

Muzeyi ziyarət edən qonaqlardan Xalq şairi Ramiz Rövşən, xalq artistləri Xuraman Qasımova, Yeganə Axundova, Fidan Hacıyeva və tarixçi-alim Solmaz Tohidi Nailə xanım haqqında xatirələrini bölüşdülər.

Tədbirin sonunda “Nailə xanım İsayeva xatirələrdə” kitabı qonaqlara hədiyyə olundu.








































